# Makronun partiyası rüsvayçı məğlubiyyətə məruz qaldı

**"Avropa Parlementinin deputatlarının qanunvericilik təşəbbüsü hüquqları olmasa da, onlar mühüm qərarlar qəbul edən Avropa Komissiyasının tərkibini və rəhbərini müəyyənləşdirirlər. Bu baxımdan AP-yə keçirilən seçkilərin bu regionda və dünyada cərəyan edən siyasi proseslərə ciddi təsir göstərəcəyi şübhə doğurmur. Avroparlamentin sırf Azərbaycanla bağlı mövqeyinə gəlincə isə seçkilərdə Fransa namizədləri arasında sağçıların üstünlük qazanması ölkəmizə münasibəti yaxşı mənada dəyişəcək".**



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu deyib. Deputat qeyd edib ki, iyunun 9-da başa çatmış parlament seçkilərinin müxtəlif istiqamətlərdə ciddi təsirləri zaman-zaman ortaya çıxacaq: "Avropanın müxtəlif ölkələrində ultrasağçıların fəallığının artdığı, mövqelərinin möhkəmləndiyi bir dövrdə bu, qaçılmazdır. Həmçinin nəzərə almaq lazımdır ki, bu, Böyük Britaniyanın Avropa İttifaqı üzvlüyündən çıxmasından sonra keçirilən ilk seçkidir. Ona görə də seçkinin nəticələri bütövlükdə Avropanın mövqeyinə təsirsiz ötüşməyəcək".

Deputat həmçinin qeyd edib ki, Avropa İttifaqının seçicilərinin regionda yaranmış vəziyyətdən narazı olduqlarını və yenilik istədiklərini seçkinin nəticələri də sübuta yetirdi: "Yeniliklər dedikdə, Avropanın müxtəlif istiqamətlərdə sərgilədiyi mövqelər nəzərdə tutulur. Ehtimal olunur ki, elə bu cür də olacaq. Millətçilərin parlamentdə üstünlük əldə etməsi Avropanın yanaşmalarının dəyişməsində ciddi rol oynayacaq. Xüsusilə Fransa tərəfindən Makronun partiyasının ağır fiaskoya düçar olması yeni reallıqlar ortaya qoyacaq".

Elşad Mirbəşiroğlu qeyd edib ki, avropalı analitiklərin proqnozları özünü doğrultdu: "Elə onların sözləri ilə desək, Makronun partiyası cəmi 15 faiz səs toplamaqla, rüsvayçı məğlubiyyətə məruz qaldı. Onun rəqibi radikal millətçi Marin Le Pen isə 32 faiz səs topladı. Fikrimcə, bu, Avropa Parlamentində Azərbaycana qarşı hücumların da əhəmiyyətli dərəcədə azalmasını şərtləndirəcək. Çünki Avropa Parlamenti daxilində ölkəmizə qarşı qərəzli mövqelərin formalaşdırılmasının, müzakirələrin təşkil olunmasının əsas təşəbbüskarı rolunda məhz Fransa, xüsusilə də Makronun "Renaissance" partiyası çıxış edirdi".

Deputat söyləyib ki, Fransa sözügedən parlamentdə Almaniyadan sonra ən çox deputata malik olan ikinci ölkə olduğuna görə qalib gələn fransız namizədlərin siyasi mövqeyi bütövlükdə AP-nin digər ölkələrlə münasibətlərini tənzimləyə bilər. Avropalı siyasətçilər də vurğulayırlar ki, millətçilərin parlamentdə mövqeyinin yüksəlməsi regionun siyasi mənzərəsinə təsir edəcək. Burada Rusiya amilini də diqqətdən kənarda saxlamaq olmaz. Avropalıların düşüncəsinə görə, ifrat sağçılarla Rusiya arasında ünsiyyət qənaətbəxşdir. Bu, Avropanın qonşu Rusiyaya münasibətdə də mövqeyini yaxşı istiqamətdə dəyişə bilər".

***Nəzrin QAFARZADƏ, "Azərbaycan"***

Azərbaycan.- 2024.- 11 iyun, № 122.- S.8.